# Füzulinin aqrar ənənələrinin dirçəldilməsi bölgəni yüksəlişə aparır

***❒ Regional inkişaf, işğaldan azad edilmiş bölgələrin bərpası və dirçəldilməsi, məcburi köçkünlərin problemlərinin həlli ilə bağlı dövlət proqramlarının uğurla həyata keçirilməsi Füzuli rayonunu yeni inkişaf yoluna çıxarmışdır. Bu bölgə Ermənistanın işğalından əvvəlki dövrdə ölkənin ən güclü kənd təsərrüfatı rayonlarından biri kimi tanınırdı. Hazırda rayon mərkəzi və bir çox kəndlər, ümumiyyətlə ərazinin yarısı erməni silahlı qüvvələrinin nəzarəti altında olsa da, azad edilmiş yerlərdə işğaldan əvvəlkindən çox məhsul istehsal olunur. Bu uğur ilk növbədə taxılçılığa aiddir.***



Ümumiyyətlə, Füzuli rayonu ərazisi ölkəmizin ən qədim yaşayış məskənlərindəndir. Arazqırağının sulu, münbit torpaqları on min illər əvvəl burada əkinçilik və heyvandarlıqla məşğul olmağa imkan yaratmışdır. Ən qədim mağara və kurqanlardan tapılan buğda qalıqları taxılçılığın ilkin inkişafından xəbər verir. Tarixin son dövrlərində də bu torpaq bol taxılı ilə tanınıb. Qarabağda əksər rayonların əhalisi deyirdi ki, müharibə və aclıq illərində bizi ölümdən Qaryaginin ( rayonun əvvəlki adı- red.) taxılı xilas edədi.

Ulu öndər Heydər Əliyevin ölkəyə rəhbərliyinin birinci dövründə Füzulu rayonu da əsl aqrar intibaha qovuşdu. O illərdə respublikamızda olduğu kimi, bizim rayonda da pambıqçılıq, üzümçülük, taxılçılıq, baramaçılıq, heyvandarlıq sahəsində yüksək məhsuldarlığa nail olundu.

Rayonumuzun ölkədəki başsızlıq və xəyanətlər səbəbindən işğal edilməsi o dövrün ehtişamını oda qaladı, hər şey məhv edildi. Ümummilli lider Heydər Əliyevin səyləri ilə ərazinin bir hissəsi işğaldan azad edildikdən sonra bu yerlərin sakinləri geri dönüb dövlətin hərtərəfli dəstəyi ilə sönmüş çıraqlarını yandırdılar, yıxılmış damlarını dikəltdilər, təsərrüfatlarını qaydaya saldılar.



İlk vaxtlar ərzaq məhsullarına, çörəyə olan böyük ehtiyaca görə adamlar taxıl, tərəvəz əkinlərinə üstünlük verməli oldular. Torpaqların kəndliyə mülk kimi verilməsi adamları böyük həvəslə işləməyə ruhlandırdı. Getdikcə digər aqrar sahələr də inkişafa başladı, iri, müasir istehsal və emal müəssisələri işə salındı. Rayon tezliklə nəinki özünü kənd məhsulları ilə təmin etdi, həttə ölkə bazarına da külli miqdarda ərzaq malları çıxartdı.

Bu ildən ölkənin aqrar ənənələrinin dirçəldilməsi ilə bağlı Prezident İlham Əliyevin əsaslı tədbirlərə start verməsi füzulililəri ürəkdən sevindirmiş, adamların əl-qolu bir az da açılmışdır. Bu yaxınlarda ümumrayon müşavirəsində ilin birinci yarısına yekun vurularkən və dövlət başçısının kəndin qarşısında qoyduğu vəzifələr müzakirə edilərkən bütün bunlar barədə geniş və işgüzar söhbət getdi. Bildirildi ki, dövlətin fəal dəstəyi ilə ölkəmiz kimi, Füzuli rayonunun da uğurlu inkişafı təmin edilir.

Doğrudan da, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən aqrar islahatlar, bu sektora dövlət dəstəyinin əhəmiyyətli dərəcədə gücləndirilməsi, yeni çağırışlara uyğun strateji hədəflərin müəyyənləşdirilməsi və zəruri islahatların aparılması kənd təsərrüfatında ciddi inkişaf dinamikasına, mühüm kəmiyyət və keyfiyyət dəyişikliklərinə, eləcə də bu sahəyə inamın artmasına və fəallığın yüksəlməsinə səbəb olmuşdur.

İlkin proqnozlara görə, cari ildə ölkədə 3 milyon tondan artıq taxıl istehsalı gözlənilir. Artıq bunun təxminən 120 min tonu rayonumuzda istehsal edilərək dəyirmanlar tərəfindən tədarük edilmişdir. Aqrar sahəyə göstərilən diqqət və qayğı rayonumuzda da öz əksini tapmaqdadır, belə ki, keçən il rayonda əkinə yararlı 51000 hektar torpaqdan 41048 hektarı əkilmişdisə, bu il bu göstərici 3383 hektar artaraq 44431 hektar təşkil etmişdir. Bu il rayonumuzda biçin işləri də qısa müddətdə və itkisiz aparılmışdır. 23905 hektardan 79481 ton buğda, 11923 hektardan isə 40852 ton arpa biçilmişdir.

Əkin altında olan 44431 hektar sahənin 35828 hektarında taxıl, 165 hektarında qarğıdalı, 505 hektarında pambıq, 141 hektarında kartof, 496 hektarında bostan, 698 hektarında tərəvəz, 37 hektarnıda günəbaxan, 6040 hektarında yem bitkiləri və 521 hektarında şəkər çuğunduru əkilmişdir.

İstehsalın artımı ilə yanaşı, ölkə rəhbərliyinin ixracın stimullaşdırılması üçün müəyyən etdiyi dəstək tədbirləri, habelə aidiyyəti dövlət orqanlarının məhsulun ixracı ilə bağlı yaranan maneələri aradan qaldırması kənd təsərrüfatı məhsullarının həm ümumilikdə, həm də müxtəlif seqmentlər üzrə ixracını kəskin şəkildə artırmışdır. Belə ki, cari ilin 6 ayı ərzində əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə ümumilikdə 27,5 faiz, o cümlədən meyvə ixracı üzrə 13,1 faiz, tərəvəz məhsulları ixracı üzrə isə 33,1 faiz artıma nail olunmuşdur.

Ölkə rəhbərliyinin və Kənd Təsərrüfatı Nazirliyinin heyvandarlıqda qarşıya qoyulan konkret hədəf heyvanların cins tərkibini dəyişməklə onları stasionar bəsləmə şəraitinə keçirmək, beləliklə də, boşalan örüş və otlaq sahələrini əkin kateqoriyasına daxil edərək yem bazasının, digər ənənəvi bitki növlərinin istehsalının artırılmasına şərait yaratmaqdan ibarətdir. Məhsuldarlığı 5-- 6 dəfə yüksəltmək hesabına heyvanların baş sayını 3-- 4 dəfə azaldaraq intensiv inkişaf hədəfinə nail olunması qarşımızda əsas vəzifələrdən biri kimi durur. Bu məqsədlə yeni doğulan hər baş cins buzova görə müəyyən edilmiş 100 manat məbləğində subsidiya bu niyyətin həyata keçirilməsində əvəzsiz rol oynayacaq.

Bitkiçilikdə isə hədəfimiz torpaqların kütləvi analizinə başlamaqdır. Bu əməliyyatsız, əslində, torpağa hansı növ və nə qədər gübrə verilməsini müəyyən etmək mümkün deyil. Bunu həyata keçirmək üçün isə əvvəlcə müasir aqrokimya laboratoriyalarının yaradılması lazımdır. Artıq bu sahədə müəyyən addımlar atılmaqdadır. Yeri gəlmişkən onu da qeyd edim ki, rayon üzrə ümumi torpaq sahəsi 139392 hektar təşkil edir. Bundan 67692 hektarı işğal altında 71700 hektarı özümüzdədir. İstifadəmizdə olan torpağın 51000 hektarı əkinə yararlıdır. O cümlədən bundan 10098 hektarı öz axımı ilə,16044 hektarı isə nasos və artezian quyuları ilə suvarılandır. Yerdə qalan 24858 hektar isə dəmyə kateqoriyasına aiddir.



Rayon Bitki Mühafizəsi Mərkəzinin işçilərinin vaxtında həyata keçirdikləri tədbirlərin nəticəsidir ki, qonşu rayonlarla müqayisədə, taxıl məhsullarında rast gəlinən pas xəstəliyi bizim ərazidə, demək olar ki, rast gəlinmədi.

Dünya bazarında pambıq ehtiyatlarının azalması, tələbin isə artması və qiymətlərin yüksəlməsi fonunda rayonumuzda qədim ənənəyə malik pambıqçılığın inkişafının sürətləndirilməsi məqsədilə rəhbər orqanların tövsiyə və tapşırıqlarının icrasına başlanılmışdır. Keçən ilkinə nisbətdə 494 hektar artımla 500 hektarda pambıq əkilmişdir. Yetişdiriləcək məhsulun vaxtında yığılması və tədarükü məqsədilə bütün zəruri tədbirlər görülmüş və müvafiq texnikalar sifariş verilmişdir.

Bunun da hesabına cari ildə 1000 tondan artıq, ötən illə müqayisədə 50 dəfə çox məhsulun istehsalı gözlənilir ki, bu da ölkəyə valyuta, rayona isə manat daxilolmalarının, eləcə də rayon əhalisinin gəlir əldə etmək imkanlarını artıracaq, məşğulluq probleminin həllinə töhfə verəcəkdir. Növbəti ildə pambığın əkin sahələrinin 2000-- 2500 hektara çatdırılması nəzərdə tutulur.

Dünya bazarında ipəkçilik məhsullarına tələbatın yüksək olduğunu, rayonda yüzlərlə ailənin işlə təmin edilməsində əhəmiyyətini nəzərə alaraq, bu ildən barama istehsalının müasir infrastrukturunun yaradılması istiqamətində müvafiq tədbirlər həyata keçirilir. Keçən il istehsalı sıfıra bərabər olmuş barama istehsalı cari ildə 3030 kiloqram məhsulla uğurlu startını götürmüşdür.

Cari ildə pambıq, tütün və barama xammalının tədarük qiymətlərinin artırılması, hökumətin qərarı ilə hər hektar pambıq və tütün əkininə görə əlavə 40 manat (cəmi 90 manat), tədarük edilən hər kiloqram baramaya görə istehsalçılara 2 manat subsidiyanın verilməsi və barama toxumlarının isə əvəzsiz paylanması barədə hökumətə təqdim olunmuş qərar layihəsinin qəbul edilməsi bu tapşırıqların icrasına əsaslı zəmin yaradacaq.

Ölkədə bir neçə il öncə kənd təsərrüfatı məhsullarının sahədən satış qiyməti ilə son istehlak bazarında satış qiyməti arasında olan 3-5 dəfə fərq son dövrlərdə bazar infrastrukturunun inkişafı ilə əlaqədar -- 2 dəfəyə qədər azalmışdır. Lakin məhsulların satışından əldə edilən vəsaitin vasitəçilərə deyil, fermerlərə çatması üçün rayonda kənd təsərrüfatı yarmarkalarının təşkil edilməsi zərurəti yaranmışdır. Bu kimi tədbirlər həm məhsul istehsalının artımına, eləcədə ucuzluğa gətirib çıxaracaqdır.

Bundan başqa, torpaq sahələrinin (xüsusilə bələdiyyə mülkiyyətində olan) icarəyə verilmə mexanizminin sadələşdirilməsinə; ermənilərin ölkəmizə, eləcə də, rayonumuza hərbi təcavüzü zamanı islahat aparılmayaraq dövlət mülkiyyətində saxlanılan və əhali tərəfindən becərilən əkin sahələrinə görə subsidiya verilməsi üçün hüquqi əsasların yaradılmasına; irimiqyaslı layihələr həyata keçirilən zaman əvəzlənən torpaq sahələrinə subsidiyanın verilməsi üçün onlara hüquq müəyyənedici sənədlərin verilməsinə zərurət yaranmışdır.

Yeri gəlmişkən qeyd etmək istərdim ki, bu yaxınlarda Kənd Təsərrüfatı Nazirliyində müvafiq şöbə və qurumların rəhbərlərinin iştirakı ilə aqrar sahənin inkişafı ilə bağlı prioritet hesab edilmiş məsələlərin müzakirəsinə dair geniş toplantı keçirildi. Burada hər bir sahə üzrə mövcud vəziyyət və qarşıda duran vəzifələr ətraflı təhlil olundu.

Müzakirələrdə nazir Heydər Əsədov əkin dövriyyəsinə daxil olan torpaqların istifadə mexanizminin qısa müddətdə hazırlanması, aqrokimya laboratoriyalarının yenidən qurulması və ən müasir avadanlıqlarla təchiz edilməsi, istehsal olunan məhsulun keyfiyyətinə nəzarətin gücləndirilməsi, kənd təsərrüfatı məhsullarının dəqiq və şəffaf statistik uçotunun aparılmasının vacibliyini vurğuladı. Rayon kənd təsərrüfatı idarələrinin fəaliyyətinin tənzimlənməsi üçün texniki təminatın, elektron xidmətlərin və kadr hazırlığının səviyyəsinin yüksəldilməsinə ehtiyac duyulduğuna da toxunuldu.

Müzakirələrdən sonra özəl baytarlıq xidmətinin yaranması üçün müvafiq tədbirlərin görülməsi, "Aqrolizinq" ASC xətti ilə ən müasir texnika və texnoloji avadanlıqların gətirilməsi, Avropa təcrübəsindən istifadə etməklə subsidiyaların verilmə mexanizminin təkmilləşdirilməsi üçün qısa zamanda təkliflərin hazırlanması barədə göstəriş verildi. Qeyd olundu ki, toxumçuluğun maddi-texniki bazasının təkmilləşdirilməsi üçün ilkin tenderlərin keçirilməsi, baramaçılığın inkişafı üçün çəkil plantasiyalarının salınması, aqrar elmin yenidən təşkili ilə bağlı təkliflər də operativ olaraq hazırlanmalıdır.

Ümidvarıq ki, rayonumuzdakı və nazirlikdəki toplantılarda göstərilən bütün bu məsələlərin həlli və görüləcək digər tədbirlər Füzulidə də aqrar sektorun çağdaş davamlı inkişafını təmin edəcəkdir.

***Hüseyn ABBASOV,***
***Füzuli Rayon Kənd Təsərrüfatı İdarəsinin rəisi***